

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ qapısı

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 183 (23.345)

*1 oktyabr 2019-cu il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 30-da Fransa Respublikası Senatının Fransa-Qafqaz dostluq qrupunun sədri və Azərbaycan üzrə sədr müavini Alen Uperin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Nümayəndə heyətinin üzvlərini salamlayan Prezident İlham Əliyev deyib ki, yüksək səviyyəli səfərlər bütün sahələrdə əlaqələrin inkişafına güclü təkan verib. Təsadüfi deyil ki, bir çox sahələrdə, o cümlədən energetika, nəqliyyat, kosmik sənaye, kənd təsərrüfatı, təhsil və digər sahələrdə əlaqələrimiz uğurla inkişaf edir. Əlbəttə ki, parlamentlərarası əlaqələr ümumi əlaqələrimizin inkişafına çox mühüm töhfə vermişdir.

Alen Uper mədəniyyətlərarası və dinlərarası dialoqda Azərbaycanın əhəmiyyətini xüsusi olaraq vurğulayıb və Fransada bu mövzu ilə əlaqədar müzakirələr aparılan zaman Azərbaycanı nümunə kimi təqdim etdiyini bildirib.

Dövlətimizin başçısı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə əlaqədar Azərbaycanın mövqeyini diqqətə çatdıraraq bildirib ki, bu münaqişə yalnız və yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır.

Görüşdə Azərbaycan ilə Fransa arasında dostluq və əməkdaşlığın inkişafında Birinci vitse-prezident Mehriban Əliyevanın xüsusi rolu qeyd olunub. Həmçinin söhbət zamanı iki ölkə arasında elmi-tədqiqat, tibb və digər sahələrdə əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparılıb.



## Naxçıvanda "Arıçılıq məhsulları – bal festivalı" keçirilib





2019-cu il muxtar respublikada "Ailə təsərrüfatları ili" elan olunmuşdur. Naxçıvanın ən qədim təsərrüfat sahələrindən biri də arıçılıqdır. Zəngin bitki örtüyü və təbii şərait yüksəkkeyfiyyətli bal istehsalına, göstərilən dövlət qayğısı və dəstəyi isə arıçılıq təsərrüfatlarının sayının ilbəil artmasına səbəb olmuşdur. Hər il Naxçıvan şəhərində keçirilən "Arıçılıq məhsulları – bal festivalı" da arıçılar üçün geniş imkanlar açır.

Sentyabrın 28-də "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində "Arıçılıq məhsulları – bal festivalı" keçirilmişdir.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov festivalda iştirak etmişdir.

Festival açıq elan edildikdən sonra Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin dekanı, biologiya üzrə fəlsəfə doktoru, dosent Elsevər Əsədov çıxış edərək demişdir ki, Naxçıvanda arıçılıq, əsasən, son 20 ildə geniş surətdə inkişaf etdirilməyə başlanmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə arıçılığın inkişafı sahəsində mühüm tədbirlər görülmüş, arı ailələrinin sayı artmışdır. Hazırda muxtar respublikada arı ailələrinin sayı 74 mindən çoxdur. Elsevər Əsədov arıçılar adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlıq etmişdir.

Məlumat verilmişdir ki, festivala muxtar respublikanın şəhər və rayonlarında fəaliyyət göstərən 323 arıçı tərəfindən 13 tondan artıq süzmə, 3 tona yaxın şan bal, arı südü, mum, vərəmum, çiçək tozu və güləm çıxarılmışdır. Naxçıvan balı öz dadı, qoxusu, görünüşü, həmçinin bir sıra keyfiyyət göstəricilərinə görə Azərbaycanda, eyni zamanda qonşu ölkələrdə yaxşı tanınır və yüksək qiymətləndirilir. Son illər Naxçıvanda arıçılıq sahəsində aparılan elmi araşdırmaların həcmi çoxalmış, bu sahəyə dair kitab və dərsliklər nəşr olunmuşdur. Balla yanaşı,vərəmum, çiçək tozu, güləm, arı südü və digər arıçılıq məhsulları yüksək tibbi əhəmiyyətə malikdir. Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsində vərəmumdan təbii antibiotiklər hazırlanır.

Naxçıvan şəhər sakini Bəymməmməd Ağamədov Ali Məclisin Sədrinə minnətdarlıq edərək demişdir: Fəxr edirik ki, cənab İlham Əliyev kimi Prezidentimiz var. Eyni zamanda fəxr edirik ki, Naxçıvanımızı inkişafa, sabitliyə, rifaha qovuşduran rəhbərimiz var. Ölkəmizin, onun bir hissəsi olan doğma Naxçıvanımızın çətin günlərini yaxşı xatırlayırıq. Ulu öndər Heydər Əliyev xalqımızı, ölkəmizi, müstəqilliyimizi o çətin günlərdən xilas etdi, qorudu.

Ali Məclisin Sədri arıçılarla söhbət etmiş, bal almış, onların qayğıları ilə maraqlanmışdır.

Günnüt kəndindən olan arıçılar Fikrət Məmmədov və Nəsrəddin Fərəcov minnətdarlıq edərək demişlər ki, artıq Günnüt balının şöhrəti geri qaytarılıb. Həm zəngin bitki örtüyü, həm də təbii şəraiti Günnüt kəndində arıçılıq üçün geniş imkanlar açır. İşğaldan azad olunduqdan sonra arıçılar bu imkanlardan yararlanaraq keyfiyyətli bal istehsal edirlər.

Şərur rayonunun Cəlilkənd sakini, arıçı, "Əmək orden"li Familə Mirzəyeva demişdir ki, arıçı sahibkarların pulsuz dərmanla təmin edilməsi, hər bir arı ailəsinə görə subsidiyanın və arıçılara güzəştli kreditlərin verilməsi bu



sahənin inkişafına geniş imkanlar açmışdır. Festivallarda məhsullarımızı rahat satırıq. Eyni zamanda təsərrüfat adamlarının əməyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilir. Bu da məsuliyyətimizi artırır, daha həvəslə işləyirik.

Arıçılardan Mirabbas Eminov, Vilayət Abdullayev, Müqbil Zamanov da minnətdarlıq edərək festivalın məhsul satışı ilə yanaşı, həm də arıçılar arasında təcrübə mübadiləsi aparılması baxımından əhəmiyyətli olduğunu vurğulamışlar.

Naxçıvanda festivalların keçirilməsi turistlər və gələn qonaqlar tərəfindən də böyük maraqla qarşılanır.

Bakı şəhər sakini, Azərbaycan Dövlət Radiosunun baş redaktoru, Əməkdar incəsənət xadimi Şəfəq Əlixanlı minnətdarlıq edərək demişdir: "Hər il Naxçıvana gəlirik. Müxtəlif tədbirlərdə, festivallarda iştirak edir, muxtar respublikanı gəzirik. Naxçıvanın mərkəzində də, ən ucqar yaşayış məntəqələrində də inkişaf və müasirlik var. Səliqə-sahman, təmizlik, insanların xoş siması bizi qürurlandırır. Heyrətlənməmək mümkün deyil. Artıq əminliklə demək olar ki, Naxçıvan dünyanın mərkəzi və ən abad yeridir".

Azərbaycan Dövlət Televiziyasının əməkdaşı Yasəmən Hacıyeva da Naxçıvanın inkişafının, xüsusilə elmə, təhsilə göstərilən diqqətin, tikilən müasir məktəb binalarının, səhiyyə müəssisələrinin, salınan yolların, abadlaşan

*Ardı 2-ci səhifədə*





kəndlərin, keçirilən festivalların nümunə olduğunu bildirmişdir.

Festivalda baldan hazırlanan müxtəlif şirniyyatların, eləcə də dulusçuluq, ağacişləmə,



tikmə nümunələrinin, məhkumların hazırladıqları müxtəlif əl işlərinin də satışı həyata keçirilmişdir.

Şahbuz, Sədərək, Ordubad, Babək və Culfa rayonlarından gələn arıçılar da Ali Məclisin Sədrinə arıçılığın inkişafı üçün yaradılan şəraitə görə minnətdarlıq etmişlər.

Culfa rayonunun Gülüstan kənd sakini, arıçı İlqar Hüseynov arı ailələrinin becərilməsində qədim metodlardan və Naxçıvan təcrübəsindən geniş istifadə etdiyini bildirmişdir. İlqar Hüseynov demişdir ki, Gülüstan kəndi arıçılıq üçün çox əlverişlidir. Hər il bol məhsul götürürəm. İstehsal etdiyim baldan 170 kiloqram əsgərlərə pay vermişəm. Dövlət təsərrüfatımın inkişafı üçün şərait yaradır, dəstək verir. Bizim borcumuz da ordumuzla bir olmaqdır, həmrəylik nümayiş etdirməkdir.

Naxçıvan Dövlət Filarmoniyasının Estrada Orkestri və Rəqs qrupu festival iştirakçılarına musiqi nömrələri təqdim etmişlər.

Ali Məclisin Sədri Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçiləri – Naxçıvan Dövlət Filarmoniyasının Estrada Orkestrinin bədii rəhbəri və dirijoru Nizami Məmmədov və Mahnı və Rəqs Ansamblının baletmeysteri Tamerlan Bağırov ilə görüşmüş, orkestrin və



ansamblın formalaşmasının əhəmiyyətini vurğulamış, onlara təşəkkür etmişdir. Həmçinin Ali Məclisin Sədri "Turizm könüllüləri" layihəsinin iştirakçıları ilə söhbət etmişdir.

Ali Məclisin Sədri nümunəvi arıçılıq təsərrüfatlarının təcrübəsinin yayılması, arıçılığın elmi əsaslarla öyrənilməsinə diqqətin artırılması, eləcə də Naxçıvan Dövlət Universitetində muxtar respublika arıçıları ilə birlikdə maarifləndirici seminarın keçirilməsi barədə tapşırıqlar vermişdir.

Festival sentyabrın 29-da da davam etmiş, arıçılar arasında "Ən yaxşı arıçılıq məhsulları – bal" nominasiyası üzrə müsabiqə keçirilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Yeni siyahıyaalma demoqrafik inkişafda prioritet istiqamətlərin müəyyənləşdirilməsinə imkan verəcək

### *Ölkəmizdə əhalinin növbəti siyahıya alınması keçirilir*

*Məlum olduğu kimi, ölkə Prezidentinin "2019-cu ildə Azərbaycan Respublikasında əhalinin siyahıya alınmasının keçirilməsi haqqında" 2016-cı il 7 sentyabr tarixli Fərmanına əsasən bu gündən etibarən oktyabrın 10-dək əhalinin növbəti siyahıya alınması aparılacaqdır. BMT-nin tövsiyələrinə uyğun olaraq 10 ildən bir keçirilməsi nəzərdə tutulan əhalinin siyahıya alınması ölkəmizdə, eləcə də muxtar respublikamızda demoqrafik inkişafın bir sıra mühüm istiqamətlərini öyrənməyə imkan verəcək. Burada məqsəd ölkə ərazisində yaşayan bütün şəxslər haqqında sosial-iqtisadi, coğrafi-demoqrafik və etnik-mədəni əlamətlərə görə məlumatların toplanması, ümumiləşdirilməsi və yayılmasıdır.*

Qeyd edək ki, Azərbaycanda ilk dəfə demoqrafik vəziyyət haqqında məlumatların əldə edilməsi çar Rusiyası dövründə – 1897-ci il Birinci Ümumrusiya siyahıya alınmasının keçirilməsi vaxtı mümkün olub. SSRİ dövründə Azərbaycan Respublikasında əhalinin siyahıyaalınmaları 1926, 1939, 1959, 1970, 1979, 1989-cu illərdə keçirilib. Müstəqillik dövründə isə bu proses 1999-cu və 2009-cu illərdə baş tutub. Bəs əhalinin siyahıya alınması hansı sosial-iqtisadi tərəfləri ilə seçilir və ümumiyyətlə, bu prosesə ölkəmizin baxışı necədir?

Əvvəlcə onu qeyd edək ki, Azərbaycanda aparılan islahatlar bu gün dünyanın nüfuzlu beynəlxalq təşkilatları və reytinq agentlikləri tərəfindən yüksək qiymətləndirilir. Danılmaz həqiqətdir ki, ölkəmizdə, eləcə də muxtar respublikamızda ardıcıl həyata keçirilən və əhalinin sosial rifahının yaxşılaşdırılmasına yönəlmiş sosial-iqtisadi siyasət, uğurla icra olunan dövlət proqramları demoqrafiya və əhali sakinliyinin inkişafına öz müsbət təsirini göstərməkdədir. Vurğulayaq ki, Şərqi Avropa və MDB dövlətləri arasında demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində dövlət siyasətinin formalaşdırılması və həyata keçirilməsi məqsədilə ilk dəfə ölkəmizdə Demoqrafik İnkişaf Konsepsiyası hazırlanıb və Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 9 dekabr tarixli Sərəncamı ilə təsdiq edilib. Bu Konsepsiya milli maraqlar nəzərə alınaraq Azərbaycan Respublikası tərəfindən ratifikasiya edilmiş bir sıra müvafiq beynəlxalq sənədlərin prinsiplərinə əsaslanır. Eyni zamanda adıçəkilən Konsepsiya ölkəmizdə əhali sakinliyinin inkişafı sahəsində davamlı siyasətin hazırlanmasına və həyata keçirilməsinə təkan verib.

İnsan inkişafı hər zaman davamlı sosial-iqtisadi tərəqqi ilə şərtlənir. BMT-nin ekspertləri tərəfindən işlənmiş və 1990-cı ildə təqdim olunmuş insan inkişafı konsepsiyası da davamlı inkişafın əsas və yeganə məqsədini – əhalinin rifahını nəzərdə tutur. Eyni zamanda sosial-iqtisadi inkişaf yolunda əhalinin rifahının təminatı hər bir dövlət üçün əsas məqsəd kimi hesab olunur. Beləliklə, insan inkişafı və sosial-iqtisadi tərəqqi qarşılıqlı əlaqəlidir və bir-birini qarşılıqlı olaraq şərtləndirir. Bu mənada, demoqrafik göstəricilərə dair proqnoz məlumatlarından sosial-iqtisadi inkişafla əlaqədar gələcək planların qurulması zamanı istifadə olunur. Əhalinin siyahıya alınması prioritet milli layihələrin inkişafının əsaslandırılması da daxil olmaqla demoqrafik vəziyyətin qiymətləndirilməsi və bütün səviyyələrdə dövlət büdcəsinin müəyyən edilməsində son dərəcə vacib mərhələdir. Məlum məsələdir ki, əhalinin sayı və onun strukturu daim zamana görə dəyişir. Yəni insan doğulur və ya ölür, yaşayış yerini dəyişir, nikaha daxil olur və ya boşanır, məktəbi və ya ali təhsil müəssisəsini bitirir, yeni peşəyə yiyələnir və sair. Bu dəyişikliklər bütünlükdə iqtisadiyyatın və cəmiyyətin inkişafına öz təsirini göstərir. Məhz bu cür demoqrafik hadisələrin qanunauyğunluqlarının dərk edilməsi yalnız etibarlı məlumatlar əsasında mümkündür. Bu baxımdan siyahıyaalma, bütövlükdə, həm ölkə, həm də onun regionları üzrə mühüm əhəmiyyət kəsb edir.

2009-cu ildə muxtar respublikada keçirilmiş siyahıyaalmanın nəticələrinə diqqət etsək, görərik ki, həmin dövrdə əhalinin sayı 398,3 min nəfər olub. Bunun 198,3 min nəfərini və ya 49,8 faizini kişilər, 200 min nəfərini və ya 50,2 faizini isə qadınlar təşkil edib. Əhalinin 115,5 min nəfəri və ya 29 faizi şəhərlərdə, 282,8 min nəfəri və ya 71 faizi kəndlərdə məskunlaşıb. 1 may 2019-cu il tarixə muxtar respublikada əhalinin sayı 457 min nəfərə yaxın olub ki, bu da 2009-cu ilin aprel ayında keçirilmiş siyahıyaalma dövründə qeydə alınmış əhali sayından 58,7 min nəfər çoxdur. Müqayisə üçün deyək ki, ikinci siyahıyaalmada əhalinin sayı birinci siyahıyaalma dövründən 44,2 min nəfər çox olub. Təbii ki, 2009-cu ildə keçirilmiş əhalinin siyahıya alınmasından ötən müddət ərzində baş vermiş ictimai-siyasi və iqtisadi proseslər demoqrafik vəziyyətə də təsir göstərərək əhalinin sayına, yerləşməsinə, sosial-iqtisadi, cins-yaş və digər əlamətlər üzrə tərkibinin dəyişməsinə səbəb olub. Bu baxımdan siyahıyaalmada demoqrafik vəziyyətin öyrənilməsi ilə əhali haqqında dolğun məlumatlar əldə edilir və həmin məlumatlardan hesablamaların aparılması və proqnozların hazırlanmasında, eləcə də elmi-praktik işlərdə və təsərrüfat fəaliyyətində istifadə olunur.

Burada diqqət edilməli məsələlərdən biri də əhali sakinliyinin inkişafıdır. Əhali sakinliyi, sadə dillə desək, mövcud əhalinin miqrasiya proseslərinə məruz qalmadan yaşadıqları bölgədə sosial-iqtisadi inkişafının təmin olunmasıdır. Bildiyimiz kimi, son illərdə bütün dünya ölkələrində şəhərlərə doğru meyillənmə halı müşahidə olunur. Burada bir çox səbəblər var, ancaq ən əsası mərkəzlərdə iqtisadi həyatın əlçatanlığı daha çox rol oynayır. Naxçıvan Muxtar Respublikasında 2009-cu ildə keçirilmiş siyahıyaalmadan görünür ki, əhalinin 71 faizi kəndlərdə yaşayır. Əhali sakinliyində bu faizin saxlanılması onun göstəricisidir ki, muxtar respublikada kənd yaşayış məntəqələrində rahat yaşayış üçün vaxtında zəruri tədbirlər həyata keçirilib. Yolların abadlaşdırılması, qaz və elektrik enerjisi ilə təminat, yeni təhsil, səhiyyə, mədəniyyət obyektlərinin istifadəyə verilməsi, kənd və xidmət mərkəzlərinin salınması, müasir rabitə və poçt xidmətlərinin təşkili, əhalinin məşğulluğu üçün müxtəlif layihələrin həyata keçirilməsi, kiçik və orta sahibkarlığın, o cümlədən ailə təsərrüfatlarının inkişaf etdirilməsi üçün lazımi şəraitin yaradılması və digər tədbirlər bu sahədə atılmış mühüm addımlardır.

Məlumdur ki, ötən siyahıyaalmadan keçən dövr ərzində bu kimi tədbirlərin həyata keçirilməsi davamlı xarakter daşıyıb, əhalinin sosial rifahı daha da yüksəlib. Bu mənada, yeni keçiriləcək siyahıyaalmada daha çox müsbət meyillərin müşahidə olunacağını indidən söyləmək mümkündür. Bu dəfə keçiriləcək siyahıyaalma əhalinin sayı, yerləşməsi, etnik mənsubiyyəti, cins və yaş tərkibi, ailə vəziyyəti, təhsil səviyyəsi, ana dili və sərbəst danışdığı digər dillər üzrə bölgüsü, gəlir mənbələri, iqtisadi fəallığı, məşğulluğu, sağlamlıq imkanlarının məhdudluğu, əhalinin ölkədaxili və ölkələrarası hərəkətinin (miqrasiyanın) səbəbləri, iqtisadiyyatın sahələri və məşğulluq statusuna görə bölgüsü, ev təsərrüfatlarının sayı və tərkibi, mənzil şəraiti və sair haqqında məlumatların əldə edilməsinə şərait yaradacaqdır. Bir sözlə, bu sosial tədbir muxtar respublikanın demoqrafik inkişaf mənzərəsini ortaya qoymaqla yanaşı, yeni hədəflərin müəyyənləşdirilməsinə də öz töhfəsini verəcək.

**Səbuhi HƏSƏNOV**

# Görkəmli alim, bacarıqlı elm təşkilatçısı

Görkəmli alim, Azərbaycan elm və təhsil sahələrinin nüfuzlu nümayəndələrindən biri, AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi, professor Fəxrəddin Səfərli Azərbaycan tarix



elmini və təhsilini yorulmaz fəaliyyəti ilə daim zənginləşdirən məhsuldar elm adamıdır. O, Azərbaycan tarixinin müxtəlif problemlərinə, xüsusilə epiqrafika sahəsinə aid neçə-neçə sanballı əsər yazmış, tariximizin çox çətin sahəsi olan daş kitabələrin tədqiq edilməsinə layiqli töhfəsini vermişdir.

1971-1976-cı illərdə Azərbaycan Pedaqoji İnstitutunun Naxçıvan filialında Tarix ixtisası üzrə ali təhsil alan Fəxrəddin müəllim doğulduğu Cəhri kənd tam orta məktəbində tarix müəllimi kimi pedaqoji fəaliyyətə başlayır və 1979-cu ilə qədər burada çalışır. Sonra isə Azərbaycan Elmlər Akademiyasının Naxçıvan Elmi Mərkəzində elmi fəaliyyətə başlayan Fəxrəddin müəllim Azərbaycan tarixinin çox vacib bir sahəsini – epiqrafikanı seçir. “Kitabə” mənasını verən epiqrafikaya tariximizin böyük ehtiyacı var idi. Naxçıvan şəhərində, muxtar respublika ərazisindəki onlarla tarix və mədəniyyət abidələri üzərindəki, unudulmuş orta əsr qəbiristanlıqlarındakı kitabələr tədqiqatçılarını gözləyirdi. Azərbaycan tarixinə və tarixi abidələrimizə maraq onu Azərbaycan Elmlər Akademiyasının Abasqulu Ağa Bakıxanov adına Tarix İnstitutunun Arxeologiya və etnoqrafiya bölməsinə aparıb çıxarmışdır. O, burada dissertant olmuş, Naxçıvanın epiqrafik abidələrinin tədqiqinə başlamışdır.

Fəxrəddin Səfərli “Naxçıvan MSSR-in ərəb-fars dilli kitabələri tarix-mədəniyyət abidələri kimi (XVI – XIX əsrlər)” mövzusunu namizədlik dissertasiyası seçir. Muxtar respublika ərazisindəki ərəb-fars dilli kitabələri qeydə alır, tədqiq etməyə başlayır. 1987-ci ildə uğurla dissertasiya müdafiə edərək tarix elmləri namizədi elmi dərəcəsi alır. Naxçıvan Elmi Mərkəzində kiçik elmi işçi kimi fəaliyyətə başlayan Fəxrəddin müəllim böyük elmi işçi, Arxeologiya və etnoqrafiya şöbəsinin müdiri vəzifəsinə yüksəlir.

Təcrübəsi artan, fəaliyyət dairəsi genişlənən Fəxrəddin müəllim Naxçıvan Muxtar Respublikasının müsəlman epiqrafikası abidələrinin əksəriyyətini qeydə alır, onları Azərbaycanın orta əsrlər dövrü tarix və mədəniyyətinin mənbəyi kimi tədqiq edir, çoxlu görkəmli şəxsiyyətin adlarını, görkəmlilərinin yerini, vəfat tarixini, bir sıra yaşayış məskənlərinin dövrünü müəyyənləşdirir. Ərazidəki kitabələrin çoxu məhz onun tədqiqatları ilə ilk dəfə olaraq elmi dövriyyəyə daxil edilir. O, Naxçıvan bölgəsinin epiqrafikasına aid bir sıra qiymətli monoqrafiya, kitab, dərslik, tədris və metodik vəsaitləri hazırlayıb nəşr etdirir. Müəllifin “Naxçıvan epiqrafik abidələrində görkəmli şəxsiyyətlər” monoqrafiyasında Naxçıvan Muxtar Respublikası ərazisindəki epiqrafik abidələrin məlumatları əsasında orta əsrlər zamanı Azərbaycan dövlətlərinə rəhbərlik etmiş 10 hökmdar və 97 görkəmli dövlət xadimi, alim, sənətkar və başqaları haqqında geniş məlumat vermiş, onların fəaliyyətlərindən bəhs etmişdir. Bütün bunlar Fəxrəddin müəllimi respublikamızda görkəmli epiqrafist alim kimi tanıtmışdır.

1995-ci ildən Naxçıvan Dövlət Universitetində müəllim kimi fəaliyyət göstərən Fəxrəddin Səfərli sonradan Azərbaycan tarixi kafedrasının professoru, 2002-2007-ci illərdə isə Universitet Həmkarlar İttifaqı Komitəsinin sədri olmuşdur.

Fəxrəddin müəllimin elmi-tədqiqat sahəsi çox genişdir. Onun Azərbaycan tarixinin sovet dövründə yasaq edilmiş problemlərinin araşdırılmasında mühüm xidmətləri var.

Alimin “Naxçıvanda sosial-siyasi və ideoloji mərkəzlər” mövzusundakı doktorluq dissertasiyasında Azərbaycan tarixşünaslığında ilk dəfə olaraq maddi mədəniyyət nümunələri araşdırılmışdır. Həmçinin orta əsr qaynaqları, epiqrafik faktlar əsasında müsəlman ruhanilərinin, Naxçıvanda fəaliyyət göstərən sosial-siyasi və ideoloji mərkəzlərin ölkənin həyatında rolu və mövqeyi məsələsi tədqiq olunmuşdur. Bununla bağlı müəllifin üç monoqrafiyası – “Naxçıvanda sosial-siyasi və ideoloji mərkəzlər”, “Naxçıvanda sufiliklə bağlı mərkəzlər”, “Orta əsrlər zamanı Naxçıvanın sosial-siyasi həyatında dini mərkəzlərin rolu” və çoxsaylı elmi məqalələri çap edilmişdir. Bu əsərlərdə sufizmin mənşəyi, təşəkkülü, yayılması, mərkəzləri və sufi şeyxləri haqqında əhatəli, dolğun məlumatlar verilmişdir. İlk dəfə olaraq Naxçıvanın məscid və ziyarətgahları ümumiləşdirilərək hər biri haqqında yığcam bəhs edilmişdir. Müəllif Naxçıvanda məktəb və mədrəsələrin fəaliyyəti ilə bağlı qeyd edir ki, Naxçıvanın geostrateji mövqeyi və onun Xilafətin Bizansa qarşı çevrilmiş əsas dayaq nöqtələrindən biri olması onun nəzərə alaraq ərəblər bu ölkədə elmin, təhsilin inkişafına şərait yaratmış və kömək etmişlər. Fəxrəddin Səfərlinin bu araşdırmalarına tanınmış alimlər – akademik Ziya Bünyadov, İsa Həbibbəyli, Nailə Vəlixanlı və digərləri çox yüksək qiymət vermişlər.

Fəxrəddin Səfərlinin 2007-ci ildən sonrakı dövr elmi fəaliyyəti AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutu ilə bağlı olmuşdur. O, 2007-ci ilin oktyabrından həmin instituta direktor seçilmiş, bütün fəaliyyətini institutun rol və mövqeyinin möhkəmləndirilməsi, kadr potensialının artırılması və elmi fəaliyyətinin gücləndirilməsinə sərf etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 6 dekabr tarixli Sərəncamı ilə muxtar respublika ərazisindəki tarix və mədəniyyət abidələrinin qeydə alınması və pasportlaşdırılması bir vəzifə olaraq qarşıya qoyulmuşdu. Fəxrəddin Səfərlinin rəhbərliyi ilə institut əməkdaşları iki il ərzində 1200-dən çox tarix və mədəniyyət abidəsini aşkar etmiş, qeydə almış və pasportlaşdırmışdır. Onlardan 600-ə yaxını dünya və ölkə əhəmiyyətli abidələrdir. Həmin abidələr əsasında “Naxçıvan Abidələri Ensiklopediyası” hazırlanıb nəşr edilmişdir.

Tarix və mədəniyyətə, tarixi abidələrə, milli-mənəvi dəyərlərə bağlılıq Fəxrəddin müəllimin elmi fəaliyyətində mühüm yer tutur. Onun “Duaların Allaha çatdığı yer – Əshabi-Kəhf”, “Əshabi-Kəhf Ziyarətgahı” Dini-Mədəni Abidə Kompleksi”, “Naxçıvanın məscid və ziyarətgahları”, “Naxçıvan imamzadələri”, “Naxçıvan türbələri”, “Naxçıvan türk-islam mədəniyyəti abidələri” kimi əsərləri bilavasitə tarix və mədəniyyət abidələrimizi tanıtmaq istiqamətində atılmış çox böyük uğurlu addımdır.

Məlum olduğu kimi, Naxçıvan şəhəri 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan edilmişdi. Fəxrəddin Səfərli bununla əlaqədar monoqrafiya hazırlamış və burada Naxçıvanın türk-islam mədəniyyəti abidələri və bu abidələri inşa edən memarlar haqqında məlumatlar vermiş, təhlillər və ümumiləşdirmələr aparmışdır. Müəllifin “Tarixi mənbələrdə Nuh Peyğəmbər” kitabı böyük maraq doğurmuşdur. Kitabda Naxçıvan və Nuh Peyğəmbərlə bağlı bir sıra əhəmiyyətli tədqiqatlar yer almışdır. Kitab elmi dəyərinə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov tərəfindən mükafata layiq görülmüşdür.

Fəxrəddin müəllim tariximizin digər dövrləri və problemləri ilə də bağlı tədqiqatlar aparmış, əsərlər ortaya qoymuşdur. Belə problemlərdən biri də məkrli düşmənlərimiz, onların haqsız və məqsədli iddialarıdır. Erməni millətçiləri Naxçıvanla bağlı ərazi iddiaları irəli sürür və bunu bölgədə erməni qəbir abidələrinin üstünlük təşkil etməsi ilə əlaqələndirirlər. Bu uydurma iddialara laqeyd qala bilməyən müəllifin “Qondarma erməni soyqırımı və tarixi həqiqətlər” kitabında ermənilərin Naxçıvana köçürülməsi, müsəlman epiqrafikası abidələrinin məlumatları əsasında ərazilərin Azərbaycan xalqına məxsusluğu, erməni iddialarının əsassızlığı sübuta yetirilir, maddi mədəniyyət nümunələrinə qarşı erməni vandalizmi ifşa olunur.

Fəxrəddin Səfərlinin elmi yaradıcılığının və ictimai fəaliyyətinin əsas mahiyyətini Azərbaycançılıq və milli dövlətçilik təlimi təşkil edir. Ulu öndər Heydər Əliyev haqqında qələmə aldığı “Heydər Əliyev irsi – əbədiyaşar təlim” monoqrafiyasında ulu öndərin nəzəri irsinin ölkəmizin gələcək uğurlarının əsasını təşkil etməsi əsaslandırılmış və bu təlimə dönə-dönə müraciət edilməsinin zəruriliyi göstərilmişdir.

AMEA Naxçıvan Bölməsində bir sıra ümumiləşdirici və fundamental əsərlərin, xəritələrin, ensiklopediyaların hazırlanmasında Fəxrəddin Səfərlinin böyük əməyi olmuşdur. Onun bilavasitə iştirakı və müəllifliyi ilə ikicildlik “Naxçıvan Ensiklopediyası”, “Naxçıvan Abidələri Ensiklopediyası”, “Naxçıvan tarixi atlası”, “Dədə Qorqud yurdu – Naxçıvan” tarixi-coğrafi və etnoqrafik atlası”, üçcildlik “Naxçıvan tarixi” əsərləri hazırlanmış və nəşr edilmişdir.

Fəxrəddin Səfərli 600-ə yaxın elmi və elmi-kütləvi əsərin müəllifidir. Onun apardığı tədqiqatlarla bağlı əsərlər Rusiya, Bolqarıstan, Türkiyə, İran, Ukrayna və başqa xarici ölkələrdə nəşr edilmişdir.

Alim dövlətçiliyimizin qorunmasında, möhkəmləndirilməsində vətəndaş qeyrəti göstərən və irəlidə gedən ziyalılarımızdandır. Onun fəaliyyəti xalqına, dövlətinə sədaqət nümunəsi, vətənpərvərliyi isə gənclərə örnəkdir.

Fəxrəddin Səfərli ölkəmizin, eləcə də muxtar respublikamızın ictimai-siyasi həyatında yaxından iştirak edir. O, IV və V çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, Hüquq siyasəti və dövlət quruculuğu məsələləri komitəsinin sədri seçilmişdir. 2010-cu ildə professor elmi adını alan alimin elmi fəaliyyəti və tədqiqatçılıq bacarığı, kadr hazırlığındakı rolu nəzərə alınaraq o, 2014-cü ildə AMEA-nın müxbir üzvü seçilmişdir.

Alim elmi fəaliyyətinə və xidmətlərinə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə “Əməkdar elm xadimi” fəxri adına, ulu öndər Heydər Əliyevin anadan olmasının 90 illiyi münasibətilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin xatirə qızıl medalına, AMEA Rəyasət Heyətinin Fəxri Fərmanına layiq görülmüşdür.

Fəxrəddin Səfərli yüksək insani keyfiyyətləri ilə də onu tanıyanların, işlədiyi kollektivin, yetirmələrinin dərin hörmətini qazanmışdır.

**İsmayıl HACIYEV**
***Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin sədri, akademik***

# Növbəti sərgi-satış təşkil olunub





*Heydər Əliyev Sarayında məhdud fiziki imkanlıların və istedadlı qadınların rəsm və əl işlərinin sərgi-satışı təşkil olunub.*

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Surə Seyid çıxış edərək bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun Tədbirlər Planına əsasən 2016-cı ildən belə sərgi-satışların keçirilməsi ənənə halını almışdır.

Vurğulanıb ki, artıq neçə illərdir, muxtar respublikada beynəlxalq rəsm, folklor və muğam festivalları, ədəbi tədbirlər, yaradıcılıq təşkilatları üzrə müsabiqələr, milli dəyərlərin əsas daşıyıcısı olan xalq yaradıcılığının müxtəlif sahələri üzrə festivallar təşkil edilir.

Qeyd olunub ki, muxtar respublikamızda fəaliyyət göstərən sağlamlıq imkanları məhdud şəxslərin və qadınların yaradıcı əməyi yüksək qiymətləndirilir. Onlar Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdlərinə, Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının fəxri adlarına layiq görülürlər. Yaradıcı insanlara dövlət dəstəyi bu gün bütün yaradıcılıq sahələrini əhatə edir. Bütün bunların nəticəsidir ki, əvvəlki illərlə müqayisədə növbəti sərgidə nümayiş olunacaq əl işlərinin sayında nəzərəçarpacaq artım müşahidə edilir. Sərgidə 35 sağlamlıq imkanları məhdud şəxsin və 2 ahıl rəssamın 283 işi və 268 yaradıcı qadının 3643 əl işi sərgilənir.

Surə Seyid bildirib ki, keçirilən sərgilər, festivallar, respublika və beynəlxalq səviyyəli tədbirlər sağlamlıq imkanları məhdud insanların və qadınların sosial-mədəni həyata daha fəal inteqrasiyasına, öz potensiallarının geniş təbliğinə şərait yaradır.

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova bildirib ki, muxtar respublikada digər fəaliyyət sahələri ilə yanaşı, qadınların məşğulluğunun təmin olunması da diqqətdə saxlanılır, xüsusi istedadları ilə seçilən, rəssamlıq, toxuculuq, el sənəti nümunələrini yaşatmağı özünə fəaliyyət sahəsi kimi seçən və asudə vaxtını bu işlərə sərf edən qadınların sayı artır, onlar tərəfindən yeni yaradıcılıq nümunələri hazırlanır.

Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Nicat Babayev qeyd edib ki, muxtar respublikanın bütün sakinləri kimi, sağlamlıq imkanları məhdud şəxslər də yüksək dövlət qayğısı ilə əhatə olunublar. Naxçıvan Muxtar Respublikasında həyata keçirilən dövlət qadın siyasəti qadınlarımızı cəmiyyətin fəal üzvünə çevirib, onların ictimai həyatda iştirakını təmin edib.

İstedadlı və yaradıcı qadınlar adından çıxış edən Lalə Əliyeva yaradılan şəraitə görə minnətdarlığını bildirib.

Sonra tədbir iştirakçıları sərgi ilə tanış olublar.

Sərgi-satışa, ümumilikdə, 305 qadının 3 min 926 əl işi çıxarılıb. Sərgi-satışda istedadlı, sağlamlıq imkanları məhdud evdar xanımlarla yanaşı, Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq, Texniki Yaradıcılıq mərkəzlərinin dərnək rəhbərləri və üzvləri, tam orta məktəblərin istedadlı şagirdləri, ali və orta ixtisas təhsili müəssisələri tələbələrinin, Naxçıvan Biznes Mərkəzinin emalatxanasında çalışan qadınların da əl işləri sərgilənir.

Sərgidə nümayiş olunan birbirindən maraqlı, rəngarəng əl işləri qadınların bədii təxəyyülünün məhsuludur. Doğma Naxçıvanımızın qədim memarlıq abidələri istedadlı qadınların rəsm və əl işlərində məharətlə əks olunub. Toplanılan əl işləri arasında milli geyim nümunələri, yağlı boya ilə çəkilən təbiət mənzərələri, quramalar, toxuma xalçalar, vitraj, rəsm işləri, dekorativ və muncuqla, həmçinin ağac üzərində yanma üsulu ilə hazırlanan əsərlər, suvenirlər və digər maraqlı əl işləri sərgilənir. Məhdud fiziki imkanlı qadınların əl işləri sərgi iştirakçılarının daha çox diqqətini cəlb edir.

Sərgi-satış 10 gün davam edəcək.

✍ **Gülcamal TAHİROVA**

# Beynəlxalq konfrans

*22-29 sentyabr tarixlərdə Qırğızıstanın Çok-Tal kəndində “İssık-Göl regionunun arxeoloji irsinin öyrənilməsi və qorunması: Narrativ beynəlxalq aspekt” mövzusunda beynəlxalq konfrans keçirilib.*

Konfransın açılışında Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik İsa Həbibbəyli çıxış edərək ölkəmizdəki qayaüstü təsviri sənət nümunələri, o cümlədən Qobustan və Gəmiqaya təsvirləri haqqında məlumat verib, Azərbaycanda tarix və mədəniyyət abidələrinin dövlət qayğısı ilə əhatə olunduğunu vurğulayıb.

AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev “Gəmiqaya təsvirlərinin məzmunu və tarixləndirilməsi” mövzusunda çıxış edərək Gəmiqaya təsvirlərini tarixi-arxeoloji aspektdə, keramika məmulatı üzərindəki rəsmləri və qaya təsvirlərini müqayisəli şəkildə təhlil edib, bu təsvirlərin dünya incəsənətinin nadir nümunələri olduğunu qeyd edib.

Çıxışda Naxçıvan Muxtar Respublikasında tarix və mədəniyyət abidələrinin dövlət qayğısı ilə əhatə olunduğu və qorunduğu xüsusilə vurğulanıb.

**Xəbərlər şöbəsi**

*Ötən şənbə günü doğma şəhərimizdə əsl bayram ab-havası hiss olunur, insanlar "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksinə tələsirdilər. Artıq səhər saatlarından başlayaraq həmin ünvana insan kütləsi axışırdı. Biz də yolumuzu məhz bu qədim tarixi abidədən, festivala ev sahibliyi edən ünvandan saldıq. Yolboyu yanından ötüb keçdiyimiz insanların çöhrəsində təbəssüm duyulurdu. Festivala muxtar respublikanın bölgələrindən arıçılıq məhsulları və bal çıxarılmışdı. Bölgələr sıra ilə düzülmüş, bununla bağlı tanıtım lövhələri yerləşdirilmişdi.*

# Yurdumuzun bal ətirli festivalından maraqlı söhbətlər...



Özünəməxsusluğu ilə seçilən pavilyonlardan diqqətimizi ilk olaraq Babək rayonuna aid olanı çəkir. Piştaxtalarda xüsusi zövqlə qablaşdırılan arıçılıq məhsullarından süzmə və şan ballar, çiçək tozu, arı südü, mum, vərəmumu görmək olurdu. Öyrənirik ki, festivalda Babək rayonundan 50 arıçı iştirak edir. Onlardan biri, yaşı 60-ı adlamış Hüseyn Orucov 15 ilə yaxındır, bu təsərrüfat növü ilə məşğul olur. Təsərrüfatında 35 arı ailəsi saxlayan arıçı bir neçə ildir ki, bu məhsul bayramında iştirak edir. Bu barədə dediklərindən: – 15 il bundan öncə təsərrüfat quranda belə yüksək nəticə əldə edəcəyim ağlıma belə, gəlməzdi. Etiraf edim ki, ilk vaxtlar məhsul az olduğundan həvəsdən düşürdüm. 2016-cı ildə festivala çıxardığım məhsulları sərfəli qiymətə satdım, burada dövlətimizin arıçılar üçün yaratdığı böyük imkanın şahidi oldum. Elə o zamandan yaxşı məhsul istehsal edərək hər il festivala çıxarıram. Sevindirici haldır ki, bir neçə saat ərzində istehsal etdiyim məhsulları sərfəli qiymətə satıb yaxşı qazanc əldə etmişəm. Dövlətimizin yaratdığı imkanlardan bəhrələnib növbəti festivallara daha artıq məhsul çıxarmağa çalışacağam. Belə gözəl şəraiti yaratdığına görə bütün arıçılar adından minnətdarlıq edirəm.

Pavilyonların qarşısından keçərkən geniş alıcı kütləsinin toplaşdığı Ordubad rayonunun piştaxtaları da diqqətimizdən kənarda qalmır. Burada məhsul seçimi edən iki nəfərə yaxınlaşıb həmsöhbət oluruq. Onlardan Bakı şəhərində yaşayan Azər Səfərov deyir ki, Şərur rayonunun İbadulla kəndində dünyaya göz açıb, bu torpağın nemətləri ilə böyümüşəm. 30 ilə yaxındır, Bakı şəhərində yaşasam da, dədə-baba yurdum olan Naxçıvana da tez-tez gələrəm. Rəhmətlik anam Pakizə xanım Naxçıvan balını çox xoşlayar, bizə də alıb yollayardı. Artıq bir neçə ildir ki, Naxçıvan balını burada yaşayan qohumlarımız vasitəsilə əldə edirik. Bu il ailəliklə doğma diyarımıza gəldik və bu məhsul bayramında iştirakımız ürəyimizcə oldu. Festivalda çeşid bolluğu ilə qarşılaşdıq, keyfiyyətli məhsul əldə edə bildik. Gördüyünüz bu pavilyondan 4 banka süzmə bal aldım. İkisi özümüzündür, digərlərini Bakıda yaşayan qohumlarımıza aparacağıq. Bakıda hər kəs Naxçıvan balını bəyənir, dadının doyumsuz olduğunu deyir. Ağız dadı ilə yediyimiz, dərdlərin dərmanı sayılan bu bal sayəsində çox xəstəliklərdən şəfa tapa bilirik. Fikrimcə, belə festivalların təşkili dövlətimizin insanların sağlam yaşayışına verdiyi ən böyük dəyərdir.

Festivalda iştirak edənlər arasında olan Amerika vətəndaşları Jak Mormon və Nancy Mormonun təəssüratlarını öyrənirik. Ailənin başçısı Jak Mormonun dediklərindən: – Naxçıvana səfərimizin bal festivalına təsadüf etməsinə çox sevindik. Festival möhtəşəm keçirilir. Burada olan musiqilər məni valeh etdi. Bir sözlə, insanlarda olan ruh yüksəkliyi, adət-ənənələrə bağlılıq, milli dəyərlərə ehtiram çox yüksək səviyyədədir. Naxçıvan balından da daddıq. Sözün əsl mənasında, bu balı yeyərkən insan çiçəklərin tamını hiss edir. Təbiiliyinə və keyfiyyətinə görə qiymətlərin də münasib olmasından istifadə edərək buradan özümüz üçün bal almışıq. Onu da qeyd edim ki, muxtar respublikaya ilk gəlişimizdir. Naxçıvanda turistlərin səfəri üçün çox maraqlı yerlər vardır. Burada üç gün müddətində qalacaq, gəzməli-görməli yerlər ilə tanış olacağıq. Naxçıvan çox təmiz, abad və sakit şəhərdir. İnsanları güləruz və mehribandırlar. Bu qədim diyarın artıq bir neçə yerini gəzmişik. Duzdağ Fizioterapiya Mərkəzi ilə də tanış olduq. Bundan əlavə, Naxçıvan şəhərindəki muzeyləri də ziyarət etdik. Bir sözlə, buranın təbiəti, suyu, havası, insanları bizi valeh etdi. Yerli təbii və keyfiyyətli məhsulların festivallarının keçirilməsi isə gözəl ənənədir. Naxçıvana səfərimiz bizim üçün çox xoş təcrübədir.

Kəngərli rayon sakini Yusif Səmədov 100 arı ailəsinə qulluq edir, festivala 200 kiloqram bal və arıçılıq məhsulları gətirib. O, dövlətimizə yaradılan şəraitə görə minnətdarlıq edir və deyir ki, arıçılığın əhəmiyyəti təkcə qiymətli məhsulların istehsalı ilə bitmir, eyni zamanda əhalinin məşğulluğunun, kənd təsərrüfatı bitkilərinin məhsuldarlığının artırılmasında və toxumların keyfiyyətinin yüksəldilməsində xüsusi rol oynayır. Arıçılıq kənd təsərrüfatının ən maraqlı, gəlirgətirən, qida və müalicəvi baxımdan xeyirli təsərrüfat sahələrindən biridir. Digərləri ilə müqayisədə arı təsərrüfatının yaradılmasına lazım olan xərc az, qoyulmuş xərcin qaytarılma müddəti qısa, təsərrüfatın inkişaf imkanları daha genişdir. Saxlanma şərtləri və istifadə müddəti olmayan, 40-dan çox növü, çoxlu sayda mineral və vitaminlərlə zəngin, saysız-hesabsız müalicəvi xassələri özündə daşıyan qida məhsulu olan bal əvəzsiz bir nemətdir. Dədə-babadan qədim yurdumuzda arıçılıqla məşğul olanlar çox olub. Naxçıvan balı adla deyilib. "Arıçılıq məhsulları – bal festivalı"nda iştirak edən arıçılar hasilə gətirdikləri balın dadına, görünüşünə və başqa keyfiyyət göstəricilərinə görə həmişə yüksək qiymətləndirilirlər. Bu gün dördüncü dəfə keçirilən festivalda yenidən olmağımdan çox məmnunam.

Gürcüstan vətəndaşı David Şvamidze ilə Şərur rayonunun Günnüt kəndindən gətirilən balın dadına baxanda həmsöhbət oluruq. Onun dedikləri: – Qafqazın ən gözəl yerlərindən birində – Naxçıvanda olmaqdan çox məmnunam. Burada, tarixi bir qalanın divarları arasında bu gözəl festival insana zövq verir. Tarix və müasirlik, milli dəyərlər və keçmişinə hörmət, təmizlik və sabitlik deyəndə həmişə Naxçıvanı xatırlayacağam. Burada insanlar o qədər səmimi və qonaqpərvərdirlər ki, hamı məni öz stendinə dəvət edir və balın dadına baxmağımı istəyir. Çox dadlı, parlaq rəngli balınız var. Bizdə ağac balı da olur. Amma bu gün burada daddığım balın dadı tamamilə fərqli idi. Qonaq olduğumu biləndən sonra mənə öz məhsullarından hədiyyə edənlər də oldu. Naxçıvan haqqında nə qədər tərif desəm, azdır. Çünki yaşamağa dəyər bir yerdir bura.

"Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində keçirilən və iki gün davam edən dördüncü festivalın yekununda arıçılar arasında "Ən yaxşı arıçılıq məhsulları – bal" nominasiyası üzrə müsabiqənin nəticələri elan edildi. Müsabiqədə I yerə Şərur rayonunun Günnüt kəndindən Fikrət Məmmədov, Culfa rayonunun Culfa şəhərindən İlqar Hüseynov, Şahbuz rayonunun Sələsüz kəndindən Etibar Məmmədov, Naxçıvan şəhər Xətai məhəlləsinin sakini Məhərrəm Eyvazov, II yerə Ordubad rayonunun Ələhi kəndindən olan arıçı Yaşar Həbibov, Babək rayonunun Babək qəsəbəsindən Hüseyn Orucov, Culfa rayonunun Kırna kəndindən Həsən Məmmədov, III yerə Kəngərli rayonunun Çalxanqala kəndindən Şahzadə Vəliyev, Sədərək rayonunun Sədərək kəndindən Abdulla Sadiqov layiq görüldülər.

✍ Ramiyyə ƏKBƏROVA
✍ Nail ƏSGƏROV
✍ Pərviz HACILI

## Beynəlxalq Ahıllar Günü münasibətilə tədbirlər keçirilib

*Beynəlxalq Ahıllar Günü münasibətilə təşkil edilən tədbirlərin davamı olaraq Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Şahbuz Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Şahbuz şəhərində yerləşən Ahıllar Evində görüş keçirilib.*

Tədbirdə Şahbuz Rayon İcra Hakimiyyətinin başçısı Rafael Babayev və Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Nicat Babayev çıxış edərək vurğulayıblar ki, muxtar respublikada dinamik inkişafın təmin edilməsi ahıl vətəndaşlara göstərilən xidmətlərin həcminin ilbəil artmasına geniş imkanlar yaradıb. Bu gün ahıl insanların sağlamlıqlarının qorunmasına, yaşayış səviyyəsinin yüksəlməsinə xüsusi önəm verilir. Onlara mütəmadi olaraq tibbi və sosial reabilitasiya xidmətləri göstərilir. Ahılların sağlam həyat tərzi yaşaması, asudə vaxtlarının səmərəli təşkili diqqət mərkəzində saxlanılır və bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirilir.

Tədbirin bədii hissəsində sağlamlıq imkanları məhdud ifaçılardan ibarət "İnam" musiqi qrupu konsert proqramı ilə çıxış edib. Sonda ahıllara hədiyyələr təqdim olunub. Onlar göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

Ahıllar Günü münasibətilə keçirilən tədbirlər çərçivəsində 110 yaşlı Şahbuz rayon sakini Ceyran Qafarova ilə də görüş olub. Görüşdə Şahbuz Rayon İcra Hakimiyyətinin başçısı Rəfael Babayev, Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Nicat Babayev, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova iştirak ediblər. Tədbirdə bildirilib ki, muxtar respublikamızda uzunömürlü insanlara lazımi sosial xidmətlər göstərilir, sağlamlıqlarının qayğısına qalınır.

Ceyran Qafarova göstərilən diqqət və qayğıya görə dövlətimizə minnətdarlığını bildirib.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## "Araz-Naxçıvan" Türkiyədən böyükhesablı qələbə ilə qayıdıb

*Naxçıvan Muxtar Respublikasının idman həyatında qazanılan uğurlara daha biri əlavə olunub. "Araz-Naxçıvan" Peşəkar Futbol Klubu Türkiyə Cümhuriyyətinin "Doğubəyazitspor" komandası ilə səfərdə keçirdiyi yoldaşlıq görüşündə böyükhesablı qələbə qazanıb.*

Struktur dəyişikliyindən sonra Naxçıvan Futbol Federasiyası muxtar respublikamızda bu idman növünün kütləvi hal alması üçün müəyyən addımlar atır. İlk olaraq uşaq futboluna ciddi önəm verən federasiya böyüklər arasında futbol və futzal birinciliklərinin startına hazırlaşır. Böyük futbol ənənəsi olan Naxçıvanda istedadlı oyunçular seçilərək əsas komandaya – "Araz-Naxçıvan"a dəvət olunur. Baş məşqçi Əsgər Abdullayevin rəhbərliyi altında isə komanda hər gün muxtar respublika stadionunda məşqlərini davam etdirir. Seleksiya xarakterli məşqlərdən sonra artıq əsas komanda formalaşdırılıb, digər komandalarla yoldaşlıq görüşləri keçirilir.

Yuxarıda qeyd etdiyimiz kimi, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Futbol Federasiyasının birgə təşkilatçılığı ilə "Araz-Naxçıvan" futbol komandası son olaraq Türkiyənin Doğubəyazit şəhərinə yollanıb. Futbolçularımız burada ölkənin bölgəsəl liqasında mübarizə aparan "Doğubəyazit" komandası ilə yoldaşlıq görüşü keçirib.

Əslində, bu görüş "qırmızı-ağlar" üçün böyük əhəmiyyət kəsb edirdi. Birincisi, federasiyada struktur dəyişikliyindən sonra komandamız ilk olaraq səfərdə meydana çıxacaqdı.



Digər tərəfdən naxçıvanlı futbolçular la yeni formalaşan "Araz-Naxçıvan" ilk sınaqdan üzüağ çıxmaq istəyirdi.

Hakimin start fiti meydan sahiblərinin komandamızın qapısına ardıcıl hücumları ilə nəticələndi. İlk 15 dəqiqədə qapımıza doğru yönələn zərbələrdə dəri əlcək sahibimiz Mövlan Kərimov sayıqlığı itirmədi. "Araz-Naxçıvan"ın heyətindəki Turqay İbrahimov və Elnur Səmədovun zərbələri isə rəqib qapıda təhlükəli anlar yaşatdı. İlk hissədə hər iki komandanın fərqlənməyə imkanları olsa da, bundan istifadə edə bilmədilər.

İkinci hissə komandamız üçün uğurlu başladı. Künc zərbəsi zamanı hazırlanmış "ev tapşırığını" dəqiq yerinə yetirən "Araz-Naxçıvan" Ayxan Həsənovla tablodakı sıfırları dəyişməyə müvəffəq oldu. Rəqib qolun şokundan ayılmamış Vüsal Əliyev uzaqdan mükəmməl zərbə ilə hesab arasındakı fərqi ikiyə çatdırdı – 0:2. Qoldan sonra rəqibi öz cərimə meydançasında qəbul etməyə başlayan "qırmızı-ağlar" daha bir əks-hücumda penalti zərbəsi qazandı. Elnur Səmədov yaranan bu fürsətdən maksimum yararlanaraq rəqibi üçüncü dəfə mərkəzə dəvət etdi. Az sonra Səmədov daha bir qolun vurulmasında böyük rol oynadı. Qapıçını da geridə qoyan hücumçumuz Vüsal Əliyevə ideal ötürmə etdi. O isə, öz növbəsində, düblunu rəsmiləşdirməklə yanaşı, həm də oyunda son nöqtəni qoydu – 0:4.

Qələbədən sonra komandanın baş məşqçisi Əsgər Abdullayevin fikirlərini öyrəndik: "Uzun müddətdir, komanda bir yerdə məşq edir. Lakin komandanın zəif cəhətləri məşqlərdən daha çox oyunlarda görünür. Buna görə də məhz rəqib kimi qonşu Türkiyənin komandasını seçdik. Çünki rəqibin sürətli və atletik futbol oynaması bizim üçün də yaxşı hal idi. Bu, üstün və zəif cəhətlərimizi daha tez sezə bilməyimizə şərait yaratdı. İlk hissədə oyuna diktə edən tərəf meydan sahibləri idi. Bunun da səbəbi meydanın ot yox, süni olması idi. Buna baxmayaraq, futbolçularım oyunun gedişatını qısa vaxtda ələ almağı və qələbə qazanmağı bacardılar. Deyərdim, bu təkcə "Araz-Naxçıvan"ın yox, futbola Naxçıvanda qayğı ilə yanaşanların qələbəsidir".

"Doğubəyazitspor" klubunun rəhbəri Rza Sorakın da oyun barədə fikirlərini dinlədik: "Naxçıvan bizim üçün doğma bir məkandır. Sizləri burada görmək, sizinlə meydanda rəqib yox, qardaş olmaq bizlər üçün qürurvericidir. Oyundan öncə dediyim kimi, görüşdə futbol yox, dostluq qazandı. "Araz-Naxçıvan"ı bu qələbə münasibətilə təbrik edirik. Qarşıdakı aylarda bu ənənəni yaşadaraq Naxçıvana səfər edəcəyik".

✍ Ceyhun MƏMMƏDOV

ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Mətanət Məmmədova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1495. Sifariş № 660